# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 8-ci səhifədə).

*Qəbələ Azərbaycanın qədim torpağıdır, tarixi diyarıdır. Hələ eramızdan əvvəl müxtəlif yazılı mənbələrdə Qəbələnin adı çəkilir. Dünya tarixində Qəbələnin özünəməxsus yeri vardır. Bu, bizim böyük sərvətimizdir. Biz öz tarixi irsimizə həmişə böyük hörmət və diqqətlə yanaşmalıyıq. Bu baxımdan, Azərbaycan tarixində, Azərbaycanın keçmişində və bu günündə Qəbələnin rolu çox mühüm və önəmlidir.*

*İlham ƏLİYEV.*

Respublikamızın paytaxtı Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak edir. 2012-ci il ərzində həmin yarmarkalarda 71,4 ton tumlu, 61 ton qərzəkli, 13,8 ton çəyirdəkli meyvələr satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam edir.

Digər kənd təsərrüfatı sahələrinin inkişafına da diqqət yetirilir, əhali arasında meyvəçiliyin inkişaf etdirilməsi istiqamətində təbliğat işləri genişləndirilir. Rayonda mövcud bağ sahələri 5.603 hektar, üzüm bağlarının sahəsi 406 hektardır. Hazırda yeni üzüm plantasiyalarının salınması işi davam etdirilir.

Respublikamızın iqtisadiyyatındakı irəliləyişlər, aqrar sahəyə dövlət qayğısının daim artması bizə deməyə imkan verir ki, rayonumuzun aqrar sektoru və bu sahədə görülən işlər bundan sonra da yüksək templə inkişaf edəcəkdir.

Rayonun ictimai-siyasi həyatının mühüm sahəsi olan tolerantlıq, dini durum və dini ayinlərin icrası nəzarətdə saxlanılır. Mövcud 45 məsciddən aktiv fəaliyyət göstərən 32-də 22 dövlət qeydiyyatından keçmiş dini icma yaradılmışdır. Nic qəsəbəsində fəaliyyət göstərən xristian provaslav kilsəsində isə dövlət qeydiyyatından keçmiş udi xristian dini icması təşkil olunmuşdur. İcmalar "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq dini ayinlərin icrasını tənzimləyir.

Rayonumuzda yaşayan etnik xalqlar öz adət-ənənələrinin, milli mədəniyyətlərinin, dillərinin qorunması, inkişaf etdirilməsi istiqamətində fəal mövqe nümayiş etdirir, biri-digərinə bərabər hüquqlu vətəndaş kimi qarşılıqlı hörmət münasibəti bəsləyir. Həyata keçirilən abadlıq-quruculuq işləri milli azlıqların yaşadığı qəsəbə və kəndləri də əhatə edir, onların bu işlərdən bəhrələnməsini təmin edir.

Ötən il sosial-iqtisadi sahədə görülmüş işlərə dair inzibati ərazi nümayəndəliklərinin hesabatlarının keçirilməsi ilə bağlı RİH başçısı 7 yanvar 2012-ci il tarixdə sərəncam imzalamışdır. Sərəncama əsasən yanvar ayının 10-dan 30-dək rayonun 60 icra nümayəndəliyində ictimaiyyətin iştirakı ilə hesabat yığıncaqları keçirilmiş, yaşayış məntəqələrində görülmüş işlər təhlil edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Hesabat yığıncaqlarının gedişi yerli mətbuatda müntəzəm olaraq işıqlandırılmışdır.



*Velosipet idmanı üzrə Azərbaycan Çempionatının iştirakçıları Qəbələdə.*
*Foto Səhrab Umuyevindir.*

Rayonda çıxan "Qəbələ" qəzeti Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin, sosial-iqtisadi inkişaf sahəsində ölkədə, rayonda əldə olunan konkret nəticələrin dolğun işıqlandırılması, milli mənəvi dəyərlərin təbliği işini xeyli yaxşılaşdırmışdır.

Görülən işlərin nəticəsidir ki, "Qəbələ" qəzetində dərc edilən materiallar daha aktual mövzuları əhatə edir.

Ayda 4 dəfə çıxan qəzetə oxucuların marağı xeyli artmışdır. Nəticədə qəzetin tirajı artırılaraq 2013-cü ilin yanvar ayından 2300 nüsxə tirajla çap olunur.

Rayonda həyata keçirilən tədbirləri, görülən işləri böyük oxucu auditoriyasına çatdırmaq üçün rayon icra hakimiyyətinin saytı yaradılmış və interfaksın Qəbələ informasiya təminatı sektoru bürosu açılmışdır. Hər iki saytda rayonda həyata keçirilən tədbirlər və görülən işlər azərbaycan dili ilə bərabər ingilis və rus dilində də yayımlanır. İndi rayonda həyata keçirilən mühüm tədbirlər barədə dünyanın hər bir yerində həmin gün məlumat almaq mümkündür.

RİH-nin saytı informasiya texnologiyaları sahəsində Azərbaycanın birinci peşəkar mükafatı "NETTY-2012" Milli İnternet Mükafatı ilə təltif olunmuşdur.

Müasir informasiya texnologiyalarından geniş istifadə olunmasının zəruriliyini nəzərə alaraq vətəndaşların rəy, təklif və şikayətlərə baxılmasının operativliyini təmin etmək məqsədilə rayon icra hakimiyyətinin elektron poçt ünvanı fəaliyyət göstərir. Elektron poçt ünvanına göndərilən ərizə və şikayətlər dərhal araşdırılaraq müraciətlər barədə müvafiq tədbirlərin görülməsi təmin edilir. Eyni zamanda icra hakimiyyətində inzibati vəzifə tutan işçilər tərəfindən vətəndaşların ərizə və şikayətlərinə ərizə müəlliflərinin iştirakı ilə birgə baxılır, obyektiv araşdırmalar aparılaraq hər bir müraciətə qanunvericilik aktlarına əsasən rəsmi cavab verilir.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı aparatına 2012-ci ildə ümumilikdə 845 vətəndaş müraciəti daxil olmuşdur. O cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 19 ədəd nəzarət qaydasında olmaqla 366, Milli Məclisdən 4 ədəd nəzarət qaydasında olmaqla 20, Nazirlər Kabinetindən 1 ədəd nəzarət qaydasında olmaqla 30, respublikanın digər təşkilatlarından 9 ədəd nəzarət qaydasında olmaqla 86, vətəndaşlardan isə rayon icra hakimiyyətinə 343 ərizə daxil olmuşdur.

Rayon icra hakimiyyətinə 2012-ci ildə ümumilikdə vətəndaşlardan 720 ərizə, 114 şikayət və 11 təklif xarakterli müraciət daxil olmuşdur. Daxil olmuş müraciətlərin hər biri ətraflı araşdırılaraq əksəriyyətinin yaranma səbəbi şəxsi məsələ ilə əlaqədar olduğu müəyyən edilmişdir.

Müraciətlərin 358-i müsbət, 247-si qismən həll olunmuş, 171-nə müvafiq izahat verilmiş, 32-si isə əsassız sayılmışdır.

Rayon icra hakimiyyətində vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinə diqqətin daha da artırılması məqsədi ilə əlavə tədbirlər planı hazırlanmışdır. Belə ki, rayon icra hakimiyyətinin başçısı həftədə 1 gün aparatda, təsdiq edilmiş qrafik üzrə 1 gün isə yaşayış məntəqələrində vətəndaşların qəbulunu keçirir. Qəbulların günü və vaxtı barədə məlumat yerli mətbuatda bir ay əvvəlcədən dərc olunur. Bununla yanaşı rayon icra hakimiyyəti başçısının müavinləri və RİH-nin şöbə müdirləri tərəfindən vətəndaşlar qəbul edilir və onların müraciətlərinə müvafiq qaydada baxılır.

2012-ci ildə ümumilikdə 2.613 vətəndaş qəbul edilmişdir ki, onlardan 1.118 nəfəri rayon icra hakimiyyəti başçısının qəbulunda olmuşdur. Bütün qəbullar zamanı verilən tapşırığın icrası təmin edilmişdir. 2012-ci ildə rayon icra hakimiyyəti başçısı yanında Şurada müzakirə edilən otuz altı məsələnin üçü vətəndaşların qəbulu və müraciətlərinə baxılması ilə əlaqədar olmuşdur.

Rayon icra hakimiyyətində və inzibati ərazi nümayəndəliklərində çalışan hər bir məsul işçidən vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində təsdiq edilmiş qanunvericiliyin və normativ hüquqi aktların tələblərinə ciddi əməl edilməsinə başçı tərəfindən daim nəzarət olunur.

(Ardı 10-cu səhifədə).